UOT 316
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2093

# SOSİOLOJİ METODUN EPİSTEMOLOGİYASI: PERİFERİYADAN BAXIŞ

**CAHANDAR QALİB OĞLU CABAROV**
*BSU-nun "İctimai elmlər" kafedrasının müəllimi,*
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*
*Azərbaycan Respublikası, Bakı ş.,*
*İstiqlaliyyət küç., 30. AZ1001*
*ORCID: https://orcid.org/0000-0002-0075-2398*
*E-mail: c.cabarov@bsu-uni.edu.az*

**XÜLASƏ**

Məqalə sosioloji metodun universal olduğu iddiasını postsovet yarı-periferiyası əsasında epistemoloji cəhətdən sorğulayır. Tədqiqatın məqsədi Azərbaycan sahə tədqiqatında qarşılaşılan struktural problemləri texniki çatışmazlıqdan daha çox, metodun gizli epistemoloji problemləri kimi yenidən çərçivələməkdir. Məqalə Vallerştyenin dünya-sistemlər nəzəriyyəsindən götürülmüş "periferiya" anlayışını epistemik mövqe kimi işlədir, Konnelin "Cənub nəzəriyyəsi", Santosun "epistemologiyanın korluğu" və Burdyenin "simvolik zorakılıq" konseptlərindən istinad nöqtəsi kimi istifadə edir. Göstərilir ki, periferiya akademiyasında metodoloji kompetentlik Qərb standartına yaxınlaşmaqla ölçülür, metodun yerli şəraitə uyğunluğu isə sual kimi belə formalaşmır. Postsovet tarixi yaddaşın, xüsusilə "sual verən adamın" sovet dövrünün dövlət fiquruyla assosiasiyasının respondentin davranışında yaratdığı deformasiya, məhəllə kültürünün sahə tədqiqatı üçün yaradan struktural maneələr və filistinizmin tədqiqata iştirakı mənasızlaşdıran dünyagörüşü kimi əhəmiyyəti ayrıca təhlil edilir. Məqalə nəticədə iki təklif irəli sürür: sahə "uğursuzluqlarının" analitik məlumat kimi sənədləşdirilməsi və tədqiqatçının öz tarixi-struktural mövqeyini metodoloji şəffaflığın bir hissəsi kimi etiraf etməsi. Postsovet dövrünün Cənubi Qafqazı hazırkı qlobal epistemoloji debatda görünməz qalmışdır; bu məqalə həmin boşluğu qismən doldurmaq cəhdidir.

**Açar sözlər:** *sosioloji metodun epistemologiyası, periferiya akademiyası, postsovetdə sahə tədqiqatı, simvolik zorakılıq, epistemik mövqe.*

## Giriş

Sosiologiyanın fəlsəfəsi və metodoloji əsaslar sahəsindəki müzakirələr onilliklərdir əsasən üç istiqamət üzrə inkişaf etmişdir: Qərb metropolunun özündaxili tənqidləri, "Qlobal Cənub" perspektivindən irəli gələn dekolonial etirazlar və postsovet keçid cəmiyyətlərinin spesifik metodoloji problemləri. R.Konnel, B.Santos, İ.Vallerşteyn kimi müəlliflər göstəriblər ki, sosioloji metodun universal olduğu iddiası əslində doğru deyil, o, məhdud bir coğrafiyaya aiddir; bu metod Qərb Avropası və Şimali Amerikanın sosial şəraitini "normal" kimi qəbul edir, periferiyadan toplanan məlumatı isə ya anomaliya, ya da primitiv mərhələ kimi oxuyur. Santosun "epistemoloji korluq" konsepti, Konnelin "Cənub nəzəriyyəsi" çərçivəsi, dekolonial ədəbiyyatın "bilik kolonialliği" tezisi – bunların hamısı eyni fundamental problemi müxtəlif dillərdə ifadə edir: metodun özü siyasidir, alət neytral görünür, amma "onu tutan əlin tarixi var" [6; 7; 13; 14]. Bu debat Latın Amerikasını, Hindistanı, Çini, Sub-Sahara Afrikanı əhatə edir, postsovet Cənubi Qafqazı isə demək olar ki, görməmiş kimi keçir. Konnel özü periferiyada istehsal edilən konseptual işlərə diqqət yetirməyə dəvət etsə də, bu dəvət Azərbaycan sosiologiyasına hələ çatmayıb. Məhz bu boşluq məqalənin mövzusunu müəyyən edir. Postsovet yarı-periferiyasının, xüsusilə Azərbaycan kimi cəmiyyətlərin sosioloji metodla münasibəti nə "Qlobal Cənub" tənqidi ilə, nə Çin sosiologiyasının indigenizasiya debatı ilə, nə də Qərb daxilindəki postmodern metodoloji şübhəçiliklə eynidir. Bu, tamamilə ayrı bir haldır.

Bu baxımdan, yazımızın məqsədi postsovet yarı-periferiyasında, xüsusilə Azərbaycan sahə tədqiqatı kontekstində sosioloji metodun tətbiqinin özünəməxsus epistemoloji şərtlərini müzakirəyə açmaq, bu şəraitdə qarşılaşılan struktural problemləri sadəcə texniki çatışmazlıq kimi deyil, sosioloji metodun gizli epistemoloji problemləri kimi yenidən çərçivələməkdir.

## Qlobal bilik istehsalında periferiya

Periferiya susub qalmır, o da yazır, o da nəzəriyyə qurur, o da metodu müzakirə edir. Lakin bu yazmanın özünəməxsus bir strukturu var: periferiya akademiyası çox zaman Qərb konseptlərini mənimsəmək, lokallaşdırmaq, tətbiq etmək və bəzən hətta təqlid etmək rejiminə düşür, nadir hallarda isə həmin konseptlərin epistemoloji əsaslarını sorğulayır. Başqa sözlə, periferiya tədqiqatçısı metodun "necə tətbiq edilir" sualını verir, "bu metod mənim şəraitim üçün nə qədər etibarlıdır" sualını isə verməkdən ya çəkinir, ya da həmin sualın mövcudluğundan xəbərsizdir. Bu fərq təsadüfi deyil; o, bilik istehsalındakı qlobal

ierarxiyanın birbaşa nəticəsidir: periferiya tədqiqatçısı Qərb jurnallarında dərc olunmaq, Qərb standartlarına cavab vermək məcburiyyətindədir və bu məcburiyyət onun sorğulaya biləcəyi sualların sərhədini müəyyən edir. Nəticədə metodoloji tənqid mərkəzdə yazılır, periferiyada isə əsasən oxunur.

Periferiya akademiyası Qərb sosioloji nəzəriyyəsinin passiv qəbuledicisi olaraq qalmamış, müxtəlif istiqamətlərdə konseptual müqavimət nümayiş etdirmişdir. Bu müqavimətin forması regiondan regiona fərqlənir; alternativ nəzəri çərçivə qurmaqdan tutmuş hibrid epistemoloji mövqelərə qədər geniş bir spektri əhatə edir.

Ən parlaq nümunə İbn Həldun məsələsidir. XIV əsr müsəlman mütəfəkkiri İbn Həldun sosiologiyanın banisi, ən azı sələfi hesab edilsə də, müasir sosial elmlər onu nəzəriyyəçi kimi deyil, tədqiqat obyekti kimi qəbul etmişdir. Maleziyalı sosioloq S.F. Alatas bu paradoksla birbaşa mübarizəyə girişmiş, Qərb sosial elmindəki avrosentrizmin qeyri-Qərb nəzəri mənbələrə diqqət yetirilməsinin qarşısında durduğunu arqumentləşdirmiş və İbn Həldunun konseptual aparatından, xüsusilə "əsəbiyyə" anlayışından çağdaş sosial və siyasi hadisələri izah etmək üçün neo-həldunçu sosiologiya qurmağı təklif etmişdir [2]. Bu təkcə "Qərb haqlı deyil" etirazı deyil, mövcud Qərb çərçivələrinin alternativ konseptual sistem ilə əvəz edilməsi cəhdidir. Afrika kontekstində isə qanalı filosof K.Viredu ənənəvi Afrika və Qərb epistemologiyalarının sintezini təklif edərək bilik anlayışının daha geniş şəkildə başa düşülməsi üçün müstəqil çərçivə yaratmış, nigeriyalı alim O.Oyevumi isə Afrika feminist perspektivindən Qərb epistemoloji fərziyyələrini tənqid edərək avrosentrik baxışların ictimai və şifahi bilik ənənələrini nəzərə almadığını göstərmişdir [11; 15].

Bir çox müəlliflər periferiya akademiyasının yalnız Qərb nəzəriyyəsinin passiv alıcısı olmadığını, əksinə özünəməxsus nəzəri potensial daşıdığını müxtəlif istiqamətlərdən arqumentləşdirir. Komarov qardaşları ən kəskin mövqe tutur: onlara görə müasir dünya tarixinin dinamikası artıq mərkəzdən deyil, periferiyadan oxunmalıdır, çünki kapitalizmın, qeyri-rəsmi iqtisadiyyatın, siyasi böhranın ən açıq formalarını ilk yaşayan cənub olmuş, şimal isə bu prosesləri gecikmiş şəkildə təkrarlayır. Bueno, Teşera və Streker isə daha metodoloji bir mövqe tutur: qlobal sosiologiyanı "mərkəzsizləşdirmək" üçün periferiya perspektivlərini nəzəriyyənin kənarına deyil, mərkəzinə yerləşdirmək lazımdır, çünki subaltern qrupların və marjinal kontekstlərin təcrübəsi sosioloji anlayışları sınayan, genişləndirən və bəzən alt-üst edən bir epistemoloji resurs rolunu oynayır. Alatas isə daha tarixi bir yanaşma seçir: Asiya sosial elminin Avrosentrizm qarşısında inkişaf etdirdiyi alternativ diskursları sənədləşdirir, İbn Həldun kimi mütəfəkkirlərin marjinallaşdırılmasının intellektual deyil, siyasi bir proses olduğunu göstərir [2; 4; 5]. Bu üç müəllif eyni fundamental iddiaya gəlir: periferiya nəzəriyyə istehsal edir, bu nəzəriyyənin intellektual dəyəri var və onun görünməzliyi onun zəifliyindən deyil, qlobal bilik iqtisadiyyatındakı struktural bərabərsizlikdən qaynaqlanır.

Çin sosiologiyası isə fərqli bir yol tutmuşdur. Bilik ədalətsizliyi problemi XX əsrin əvvəllərində Çin, Yaponiya və Koreyada müstəqil şəkildə, kolonializmlə birbaşa əlaqəsiz olaraq qoyulmuşdur. Çin sosiologiyası Qərb sosiologiyasını düşmən kimi qəbul etmədən yerliləşdirmə ilə universalizm arasında öz epistemoloji mövqeyini formalaşdırmağa çalışmış, bu da hibrid, danışıqlı bir münasibətin nümunəsini ortaya qoymuşdur. Ümumilikdə postkolonial debat sosiologiyanın özünəinamını və nəzəri premisslərin universallığı iddiasını sorğulamış, sosioloji nəzəriyyələrin və konseptlərin "yerliləşdirilməsi" çağırışını gündəmə gətirmişdir.

Periferik akademiyanın öz səsini dünyaya çatdırmasında beynəlxalq sosiologiya assosiasiyaları, ilk növbədə ISA (International Sociological Association) mühüm institusional rol oynamışdır: ayrıca tematik iş qrupları, regional komitələr, konfrans platformaları periferiya tədqiqatçılarına görünürlük imkanı yaratmışdır. Lakin bu institusional daxiletmə epistemik bərabərlik demək deyildir. Periferik tədqiqatçı beynəlxalq konfransda çıxış edir, amma nəşr üçün yenə Qərb jurnallarına müraciət edir, yenə Qərb rəyçilərinin süzgəcindən keçir, yenə ingilis dilinin hegemoniyasına tabe olur; assosiasiya platforma verir, bilik istehsalının struktural iqtisadiyyatını isə dəyişdirmir. Bundan da əhəmiyyətlisi, burada dərin bir paradoks mövcuddur: periferik akademiyanın "öz sözünü deməsi" çox zaman məhz Qərb institusional strukturlarının tanıması sayəsində mümkün olur. Konnell, Santos, Alatas periferiya adından danışırlar, amma Qərb nəşriyyatları və jurnalları vasitəsilə eşidilirlər. Yəni legitimlik hələ də mərkəzdən verilir; bu isə o deməkdir ki, assosiasiyaların yaratdığı açıqlıq periferiya səsini daxil edir, amma həmin səsin hansı dildə, hansı formatda, hansı konseptual çərçivədə səslənəcəyini yenə mərkəz müəyyən edir.

Periferik tədqiqatçı Qərb metodunu transformasiya etmək bir yana, onu transformasiya etmək fikrində də deyildir, çünki bu fikrin özü onun akademik dünyagörüşündə yer tutmur. Periferiya akademiyasında metodoloji kompetentlik Qərb standartına nə dərəcədə yaxınlaşmaqla ölçülür: Likert şkalasını

düzgün tətbiq etmək, faktor analizini düzgün qurmaq, müsahibəni düzgün kodlaşdırmaq – bunlar periferik tədqiqatçının özünü sübut etdiyi sahələrdir. Həmin metodları Qərblilər kimi, yəni "düzgün" tətbiq etmək fəxr mənbəyidir, metodun yerli şəraitə nə dərəcədə uyğun olub-olmadığı isə sual kimi belə formalaşmır. Bu münasibətin arxasında həm psixoloji, həm də struktural amillər dayanır. Psixoloji cəhətdən periferik tədqiqatçı uzun illər ərzində Qərb standartını "elmin özü" kimi qəbul etməyə şərtləndirilmişdir; bu standartı sorğulamaq elmin özünü sorğulamaq kimi hiss olunur.

Struktural cəhətdən isə ciddi bir maneə mövcuddur: əksəriyyət bu metodları deklarativ səviyyədə bilir, lakin incəliklə, dərinliklə tətbiq edə bilmir. Metodun sərhədlərini görmək üçün isə əvvəlcə onun içindən keçmək lazımdır, yəni metodu həqiqətən dərindən mənimsəmiş tədqiqatçı onun məhdudiyyətlərini görə bilər, lakin o, artıq metodla inteqrasiya olmuş, onun məntiqi ilə düşünən biridir. Belə bir şəraitdə metodun yerli kontekst tərəfindən sınanması, deformasiyaya uğraması və nəticədə yenidən düşünülməsi üçün nə intellektual, nə institusional, nə də psixoloji zəmin mövcuddur.

Periferiya anlayışı bu məqalədə Vallerşteynin dünya-sistemlər nəzəriyyəsinin terminoloji çərçivəsindən götürülmüş olub qlobal bilik istehsalı iqtisadiyyatındakı struktural mövqeyi ifadə edir, yəni nəzəriyyənin əsasən idxal edildiyi, metodun əsasən iqtibas edildiyi və akademik legitimliyin əsasən xarici mənbələrdən təsdiq axtardığı kontekstləri nəzərdə tutur. Bununla belə, onun orijinal konsepsiyasından fərqli olaraq, bizim tərəfimizdən "periferiya" iqtisadi istehsal münasibətlərini deyil, epistemik mövqeyi xarakterizə etmək üçün işlədilir; anlayış öz ilkin iqtisadi-struktur məzmunundan qismən təcrid edilərək bilik sosiologiyasının dilinə köçürülür. Periferik akademiya bu kontekstdə fəaliyyət göstərən institusional mühitdir: zəif maliyyələşən, beynəlxalq indekslərə inteqrasiyası məhdud olan, yerli dil və yerli problemlərlə məşğul olan, lakin qiymətləndirilmə meyarlarını yenə Qərb standartlarından götürən akademik sistem. Periferik tədqiqatçı isə bu sistemin içindəki fərdi aktordur; coğrafi mənada periferiyada doğulmuş olmaq onu periferik etmir, əsas olan onun bilik istehsalındakı struktural mövqeyidir: hansı nəzəriyyələri əsas götürdüyü, hansı jurnalları hədəf aldığı, metodoloji legitimliyi haradan axtardığı. Bu mənada eyni periferiya cəmiyyətinin içindən çıxmış tədqiqatçılar fərqli epistemik mövqelərdə dayana bilər, biri Qərb standartını mənimsəmiş periferik tədqiqatçı, digəri isə həmin standartı şüurlu şəkildə sorğulayan bir alim ola bilər.

Yazımızda periferiya qeyri-Qərb anlayışına bərabər tutulur. Qərb dedikdə biz Şimali Amerika və Qərbi Avropanın dominant akademik mərkəzlərini, ilk növbədə ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və Niderlandı nəzərdə tuturuq, yəni sosioloji nəzəriyyənin tarixi olaraq formalaşdığı, aparıcı jurnalların, nəşriyyatların və metodoloji standartların yerləşdiyi coğrafiyanı. Qeyri-Qərb isə bu standartların istehsalçısı deyil, istehlakçısı mövqeyindəki bütün akademik kontekstləri əhatə edir: Latın Amerikasını, Afrikanı, Cənub və Cənub-Şərqi Asiyanı, Yaxın Şərqi, postsovet məkanını. Avstraliyanın və Yaponiyanın bu bölgüdə harada dayandığı mübahisəli olsa da, əsas meyar coğrafiya deyil, epistemik mövqedir: bilik istehsalında təyinedici olan tərəf olmaq, yoxsa təyin edilən tərəf olmaq.

Qərb akademiyasının ən diqqətəçarpan xüsusiyyətlərindən biri onun özünə tənqidi münasibətidir; postkolonial nəzəriyyə, dekolonial epistemologiya, "Cənub nəzəriyyəsi" kimi cərəyanların hamısı əsasən Qərb universitetlərinin içindən, Qərb jurnallarının səhifələrindən doğmuşdur. Qərb öz metodunu, öz nəzəriyyəsini, öz tarixini problemləşdirir və bunu akademik prestij mənbəyinə çevirə bilir [1; 9; 10; 12]. Periferiya akademiyası isə əks istiqamətdə hərəkət edir: özü barədə, öz metodoloji vəziyyəti barədə, öz epistemik mövqeyi barədə yazılı, sistematik, nəzəri səviyyədə danışmaqdan qaçır. Bu qaçış passivlik deyil, arxasında müəyyən struktur məntiqi var. Belə bir tənqid aparmaq üçün əvvəlcə öz mövqeyini kənardan görmək, onu problematik kimi çərçivələmək lazımdır ki, bu da çox zaman institusional risk daşıyır: yerli akademik mühitdə "bizim metodumuz işləmir" demək legitimlik itkisi kimi qavranıla bilər. Üstəlik şifahi mədəniyyətdə bu tənqid mövcuddur; dəhlizlərdə, qeyri-rəsmi söhbətlərdə periferik tədqiqatçılar öz sahələrinin problemlərini açıq müzakirə edirlər, lakin bu bilgi yazılı, nəzəri, ixtilaflı akademik diskursa çevrilmir. Şifahi ilə yazılı arasındakı bu uçurum özü də bir epistemoloji faktdır.

Qərb ilə qeyri-Qərb (periferiya) arasında əsas fərqlər həm də sahə araşdırmalarında özünü göstərir. Qərb sahə araşdırmalarında respondentin tədqiqata iştirakı onilliklər ərzində normallaşmış, vətəndaşın akademik tədqiqatla münasibəti institusional etimad zəminində formalaşmışdır. Respondent anket doldurur, müsahibə verir, fokus qrupunda iştirak edir, bu proseslərin nə üçün mövcud olduğunu, məlumatın hara gedəcəyini, tədqiqatçının kim olduğunu əsasən anlayır və bu anlayış ona iştirak etmək və ya etməmək barədə şüurlu qərar vermək imkanı verir. Periferiyada isə bu normallaşma prosesi ya baş verməmişdir, ya da qismən və deformasiyaya uğramış şəkildə baş

vermişdir. Respondent tədqiqata iştirak etməyin mənasını, tədqiqatçının statusunu, toplanan məlumatın nə üçün lazım olduğunu çox zaman anlamamışdır və bu anlamazlıq passiv deyil, aktivdir: boşluğu öz tarixi təcrübəsindən gələn şübhə, ehtiyat və müdafiə refleksləri doldurur. Nəticədə Qərbdə tədqiqatçı razılaşmış bir subyektlə işləyir, periferiyada isə öz iştirakının mənasını hələ də qiymətləndirməkdə çətinlikləri olan, bu qiymətləndirməni isə akademik məntiqdən deyil, gündəlik həyat təcrübəsindən götürdüyü meyarlarla aparan bir subyektlə üz-üzədir. Bu fərq nümunə seçimini, məlumat keyfiyyətini və nəticələrin şərhini eyni anda təsir altına alır.

Qərb metodoloji ədəbiyyatı respondentin həmişə dürüst cavab vermədiyini bilir və bu problemi əsasən psixoloji mexanizmlər çərçivəsində izah edir: sosial arzu edilənlik effekti, cavab tərəfgirliyi, utanc və ya normaya uyğunluq istəyi. Bu mexanizmlərə qarşı inkişaf etdirilmiş texnikalar olan anonimlik təminatı, dolayı suallar və eksperimental dizayn mövcuddur və onlar müəyyən dərəcədə işləyir, çünki Qərb respondentinin cavab strategiyası əsasən bu psixoloji mexanizmlərlə izah edilə bilər. Periferiyada isə cavab strategiyalarının strukturu daha mürəkkəbdir. Respondent üç fərqli məntiqdən birini və ya bir neçəsini eyni anda işlədə bilər: həqiqi fikrini gizlətmək, sosial normaya uyğun cavab vermək, yaxud tədqiqatçının nə eşitmək istədiyini hiss edərək ona uyğun cavab vermək. Bu üçüncü strategiya, yəni tədqiqatçıya yönəlmiş cavablar Qərb metodoloji ədəbiyyatında demək olar ki, müzakirə edilmir, çünki bu cür kütləvi və sistematik bir problemin mövcudluğu Qərb sahə şəraitinin tipik xüsusiyyəti deyildir. Periferiyada isə bu var, fərdi anomaliya deyil, sosial normanın bir parçasıdır, yəni respondent özünü qorumaq üçün deyil, sadəcə sosial situasiyanı idarə etmək üçün belə davranır. Nəticədə periferiyada toplanmış məlumat bir neçə fərqli "mətn"i eyni anda ehtiva edir və standart metodoloji alətlər bu mətnləri bir-birindən ayırd etmək üçün kifayət etmir.

Qərb sahə araşdırmalarında müəyyən qrupların tədqiqatdan sistemli şəkildə kənarda qaldığı məsələsi feminist metodologiya, əlillər sosiologiyası və azlıqların tədqiqi kimi sahələrdə geniş müzakirə edilmişdir. Lakin bu müzakirənin özü Qərb akademiyasında metodoloji problem kimi tanınmış, adlandırılmış və həllinə cəhd göstərilmişdir; məqsədyönlü seçmə, vəkil vasitəsilə məlumat toplama, etnoqrafik yanaşma kimi alternativlər təklif edilmişdir. Periferiyada isə müəyyən qrupların görünməzliyi çox zaman metodoloji problem kimi belə tanınmır; o, nümunənin "təbii" xüsusiyyəti kimi qəbul edilir. Tədqiqatçı müsahibə verməyən respondenti texniki çətinlik kimi qeyd edir, onun niyə müsahibə verə bilmədiyinin struktural səbəblərini isə analitik kateqoriya kimi görməkdən qaçır. Halbuki bu "yoxluq" özü analitik məlumatdır: metodun kimi gördüyü, kimi isə görməz etdiyi onun epistemoloji arxitekturasını açıb göstərir. Daha dərin bir problem isə budur: Qərb metodoloji ədəbiyyatında inkişaf etdirilmiş görünməzliyi aradan qaldırma texnikaları da Qərb şəraitinin spesifik görünməzlik formalarını nəzərdə tutaraq hazırlanmışdır. Periferiyada görünməzliyin forması fərqlidir; o, daha çox sosial struktur, ailə nəzarəti, icma təzyiqi və institusional etimad defisiti ilə bağlıdır. Bu fərqli görünməzliyin fərqli metodoloji cavab tələb etdiyi isə periferiya akademiyasında hələ sistematik şəkildə müzakirə edilməmişdir.

**Azərbaycanda sosioloji sahə tədqiqatının epistemoloji şərtləri: struktural problemlər**

Azərbaycanda sahə tədqiqatçısının qarşılaşdığı ilk və ən sistematik problem respondentin tədqiqata iştirak etmək istəməməsidir. Bu istəksizlik pilləlidir: sosioloji sorğulara ümumi həvəssizlik müsahibəyə qarşı daha dərin bir müqavimətə çevrilir, çünki anket anonim qala bilər, müsahibə isə üz-üzə təmasla, səsin qeydə alınması ilə, şəxsi məlumatın paylaşılması ilə bağlıdır. Respondent hər addımda özünü “daha çox ifşa edilmiş” kimi hiss edir və bu ifşanın nəticələri haqqında qeyri-müəyyənlik vardır. Həvəssizliyin arxasında yalnız fərdi psixoloji xüsusiyyət deyil, sosial norma dayanır: ətrafındakıların da belə davrandığını görən respondent tədqiqatdan uzaq durmağı "ağıllı" davranış kimi qəbul edir. Bu mənada "no response" problemi fərdi qərarların cəmi deyil, kollektiv bir sosial strategiyanın nəticəsidir.

Lakin daha mürəkkəb olan məsələ budur: iştirak edən respondent də çox zaman dürüst cavab vermir. Müsahibədə tədqiqatçını aldatmağa kütləvi meyil Azərbaycan sahə tədqiqatının ən fundamental epistemoloji problemlərindən biridir. Bu aldatma fərdi vicdansızlıq deyil, o da kollektiv sosial strategiyadır. Respondent tədqiqatçının nə eşitmək istədiyini, hansı cavabın "təhlükəsiz" olduğunu, hansı mövzuların toxunulmaz olduğunu sürətlə qiymətləndirir və cavablarını bu qiymətləndirməyə uyğun şəkilləndirir. Nəticədə tədqiqatçı texniki olaraq dolu bir anket və ya transkript əldə edir, lakin bu materialın əhəmiyyətli bir hissəsi respondentin həqiqi düşüncəsini deyil, tədqiqatçıya yönəlmiş cavabları əks etdirir. Standart metodoloji alətlər olan anonimlik təminatı, neytrallıq, açıq suallar bu problemi həll etməyə kifayət etmir, çünki problem respondentin psixologiyasında deyil, sosial strukturun içindədir.

Bunun da əsas səbəbi odur ki, elmi tədqiqatçılar

təhsilsiz və mədəni-intellektual səviyyəsi aşağı olan icma yerlərində sanki “dövlət məmuru” kimi qəbul olunur. Tədqiqatçının dövlət məmuru kimi qavranılması kortəbii bir şübhə deyil, onun arxasında konkret tarixi səbəb dayanır. Sovet dönəmində "sual verən, yazan, qeyd edən adam" üç fiqurdan biri idi: partiya yoxlayıcısı, KQB və ya polis əməkdaşı, ya da məhəllə müxbiri. Bu fiqurların ortaq xüsusiyyəti ondan ibarətdi ki, onların sualları heç vaxt məsum deyildi, arxasında həmişə siyasi nəticə, institusional cəza və ya sosial damğalanma dayanırdı. "Sən nə düşünürsən?", "qonşun haqqında nə deyə bilərsən?", "ailəndə xaricdə kim var?" – bu sualların heç biri sadəcə empirik data toplamaq üçün deyildi, onlar insanlar haqqında dosye formalaşdırmaq üçün işlədilirdi. Postsovet keçid dönəmində isə bu obraza yeni bir fiqur əlavə olundu: reket jurnalisti. Postsovet məkanda jurnalistin sosial obrazı çox zaman müsbət deyildir; o, məlumat toplamaq üçün deyil, kimisə ifşa etmək, sıxışdırmaq, maddi maraq güdmək üçün gələn adam kimi qavranıla bilər. Sosioloq isə respondentin gözündə bu fiqurlardan struktural cəhətdən fərqlənmir: hər biri sual verir, hər biri yazır, hər birinin niyyəti qeyri-şəffafdır. Özbəkistanda, Gürcüstanda və Qazaxıstandakı müşahidələr də oxşar modeli sənədləşdirir: respondentlər tədqiqatçının institusional bağlılığını müəyyən etmək üçün ilk suallarını ona yönəldirlər, cavablarını isə bu qiymətləndirməyə uyğun filtrləyirlər.

P.Burdyenin "simvolik zorakılıq" konsepti bu dinamikanı anlamaq üçün güclü bir açar verir. Simvolik zorakılıq birbaşa məcburiyyət deyil, hakim münasibətlərin təbii, qaçılmaz, hətta ədalətli kimi qəbul edilməsi prosesidir [3]. Postsovet cəmiyyətlərindəki respondentlər tədqiqatçıya qarşı ehtiyatlı davranmağı şüurlu bir müqavimət kimi yaşamır; o, sadəcə "belə ehtiyatlı olmaq lazımdır" hissini mənimsəmiş, onu öz sosial instinktin bir parçasına çevirmişdir. Bu da nəsildən-nəslə keçir: sovet dönəmini yaşamayan gənc respondent də eyni ehtiyatı nümayiş etdirir, çünki bu ehtiyatı ailə mühitindən, cəmiyyət normalarından, gündəlik sosial praktikadan mənimsəmişdir. Beləliklə, problem nə təkcə fərdi psixologiya ilə, nə də təkcə texniki metodoloji çatışmazlıqla izah edilə bilər; o, strukturaldır. Tədqiqatçının "mən elmi tədqiqat aparıram, məlumatınız anonim qalacaq" təminatı institusional etimad bazası olmayan bir cəmiyyətdə havada asılı qalır, çünki bu etimadı əsaslandıracaq tarixi təcrübə mövcud deyildir. Məhz buna görə bu problem metodoloji deyil, epistemoloji-strukturaldır: onu həll etmək üçün anket dizaynını dəyişdirmək kifayət etmir, tədqiqatın baş verdiyi tarixi-sosial mühiti başa düşmək lazımdır.

Bundan əlavə, Azərbaycanda sosial həyatın ən güclü struktural xüsusiyyətlərindən biri məhəllə kültürüdür: sıx, üzvi, öz daxili qaydaları olan, kənarla münasibəti ehtiyatla tənzimləyən icma forması. Məhəllə özünü idarə edir: kimin kimə nə danışacağını, kimin evə girə biləcəyini, hansı məlumatın içəridə qalacağını, hansının bayıra çıxacağını qeyri-rəsmi, lakin son dərəcə sərt mexanizmlərlə müəyyən edir. Bu mexanizmlərin içinə rəsmi statuslu kənar adam (hətta elmi tədqiqatçı olsa belə) daxil olanda icma avtomatik olaraq müdafiə rejiminə keçir. Tədqiqatçının universiteti, vəsiqəsi, elmi dərəcəsi bu rejimdə əhəmiyyətsizdir; əhəmiyyətli olan onun "bizdən" olub-olmadığıdır. "Bizdən" olmayan adam, nə qədər xoş niyyətli olsa da, tam məlumat almır: söhbətlər dayazlaşır, cavablar rəsmiləşir, məhəllənin həqiqi sosial həyatı pərdə arxasında qalır.

Bu dinamikanın kriminal aləmlə oxşarlığı diqqətə çarpır. Mütəşəkkil kriminal qruplarda da "kənardan gələn adam" eyni ehtiyatla qarşılanır, məlumat eyni filtrlərdən keçirilir, sədaqət və etibarlılıq eyni qeyri-rəsmi meyarlarla ölçülür. Fərq bundadır ki, kriminal aləmdə bu müdafiə mexanizmi şüurlu və məqsədyönlüdür, məhəllə kültüründə isə o, adət-ənənənin, sosial normanın, kollektiv yaddaşın bir parçasına çevrilmişdir, insanlar onu şüurlu tətbiq etmirlər, sadəcə "belə görmüşük" kimi yaşayırlar. Tədqiqatçı üçün bu fərq metodoloji cəhətdən kritikdir: kriminal aləmdə müdafiə reaksiyasını sındırmaq üçün etibar qurmaq lazımdır, məhəllə kültüründə isə etibar qurmaq kifayət etmir, lazım olan icmanın "özündən biri" kimi tanınmaqdır ki, bu da xarici tədqiqatçı üçün struktural cəhətdən mümkünsüzdür və ya ona yaxın bir çətinlikdədir.

Azərbaycanda rəsmi savad göstəriciləri yüksəkdir, yazıb-oxuma bacarığı olan əhali 99%-dir. Ancaq sahə tədqiqatlarında söhbət savadsızlıqdan deyil, daha dərin bir problemdən, yəni dünyagörüşün məhdudluğundan və filistinizmdən gedir. Filistinizm burada mənəvi darısqallıq, intellektual marağın praktiki fayda hüdudlarında sıxışıb qalması kimi başa düşülür: "buna nə lazımdır", "bu mənə nə verir", "bununla nə dəyişəcək" sualları tədqiqata iştirakı mənasız edən bir dünyagörüş çərçivəsi formalaşdırır. Bu çərçivədə, sosioloji tədqiqat abstrakt, lazımsız, hətta şübhəli bir məşğuliyyət kimi görünür. Bəzi qadın respondentlər üçün isə problem daha strukturaldır: iştirak etmək ailə icazəsi tələb edir, bu icazə verilməyə bilər, verilsə belə müsahibənin məzmunu ailə nəzarətindən keçə bilər. Bu, mənim apardığım tədqiqatlarda olduqca tez-tez qarşılaşdığım bir problemdir. Hər iki halda tədqiqatdan kənar qalan respondent nümunədə “no response” kimi görünür, lakin onun görünməzliyinin

səbəbi metodoloji deyil, sosial-strukturaldır. Bu görünməzlik isə toplanmış məlumatın nəyi əks etdirdiyini deyil, nəyi əks etdirə bilmədiyini anlamaq üçün analitik əhəmiyyət daşıyır.

Qərb akademiyasında sahə araşdırmasının maliyyəsi ayrıca bir institusional kateqoriyadır: qrant sistemləri, universitetin tədqiqat büdcəsi, etik komitənin təsdiqindən keçmiş layihə smetaları – bunların hamısı sahə məlumatının toplanmasının real xərc tələb etdiyini anlayan institutlar tərəfindən və bu xərci kimin, nə əsasla ödəyəcəyini müəyyən edən strukturlaşmış bir mühit yaradır. Respondentə ödənilən kompensasiya, sahə köməkçilərinin əməyi, transkripsiya xidmətləri, nümunə seçimi üçün lazım olan resurslar – bunlar Qərb tədqiqat büdcəsinin standartlarıdır. Periferiyada, o cümlədən Azərbaycanda isə bu institusional anlayış demək olar ki, mövcud deyildir. Universitetlər sosioloji sahə araşdırmasına smeta ayırmır, ona görə yox ki, büdcə yoxdur və yaxud qaydalar mane olur, əsasən ona görə ki, sahə məlumatının toplanmasının niyə maliyyə tələb etdiyi inzibati səviyyədə anlaşılmır. Daha dərindəki problem isə bu maliyyə çatışmazlığının arxasında dayanan epistemik münasibətdir: periferiya akademiyasında empirik data toplanmasının dəyəri anlaşılmır, çünki tədqiqat çox zaman mövcud nəzəriyyələrin yerli materiallarla illüstrasiyası kimi qavranılır. Bu münasibətdə sahə araşdırması əhəmiyyətli bir epistemoloji hadisə deyil, bürokratik bir formalizmdir və bürokratik formalizmə maliyyə ayırmaq üçün güclü arqument tapmaq çətindir. Nəticədə, periferik tədqiqatçı ya öz cibindən xərcləyir, ya da maliyyə məhdudiyyətlərini metodoloji kompromislərlə (kiçildilmiş nümunə, qısaldılmış sahə müddəti, pulu ödənilməmiş köməkçilər) kompensasiya edir; bu kompromislər isə toplanmış məlumatın keyfiyyətinə birbaşa təsir edir, lakin nəşr mərhələsində metodoloji problem kimi deyil, "sahənin reallığı" kimi təqdim edilir.

Yaxşı bəs bütün bu problemlərin qarşısında biz nə etməliyik? Bu sual məqalənin ən həssas nöqtəsidir, çünki burada "nə etmək lazımdır" sualına cavab vermək metodoloji tövsiyə vermək deyil, epistemoloji bir mövqe tutmaqdır. Bu fərqi vurğulamaq lazımdır.

Birinci təklif metodoloji deyil, analitik çərçivə ilə bağlıdır: tədqiqatçı sahə şəraitinin "uğursuzluqlarını" aradan qaldırılmalı texniki problemlər kimi deyil, özü analitik məlumat kimi oxumağı öyrənməlidir. Respondentin müsahibədən imtinası boşluq deyil, sosial strukturun işarəsidir; onun tədqiqatçıya yönəlmiş cavabları sadə yalanlar deyil, tarixi reallığın proyeksiyasıdır; bəzi qrupların görünməzliyi nümunə çatışmazlığı deyil, metodun epistemoloji hüdudlarının göstəricisidir. Bu çərçivə dəyişikliyi tədqiqatçıdan yeni bir texnika deyil, yeni bir baxış tərzi tələb edir: toplanmış məlumatla birlikdə toplanmamış məlumatı da tədqiqatın bir hissəsi kimi düşünmək. Santosun "yoxluq sosiologiyası" [13] bu istiqamətdə metodoloji dayaq nöqtəsi ola bilər.

İkinci təklif isə periferiya tədqiqatçısının öz mövqeyini şüurlu şəkildə nəzərə almasıdır. Hardinqin "standpoint theory" çərçivəsindən baxıldıqda periferik tədqiqatçının mövqeyi zəiflik deyil, potensial epistemoloji üstünlükdür [8]: o, sahə şəraitini içəridən bilir, icma dinamikasını tanıyır, respondentin davranışının kontekstini başa düşür. Lakin bu üstünlük özlüyündə işləmir, onu şüurlu metodoloji resursa çevirmək lazımdır. Bu isə o deməkdir ki, periferik tədqiqatçı öz mövqeyini, yəni kim olduğunu, haradan danışdığını, hansı struktural şəraitdə tədqiqat apardığını metodoloji şəffaflığın bir hissəsi kimi nəşr etdiyi işdə görünür etməlidir. Bu Qərb metodoloji ədəbiyyatında refleksivlik adlanır, lakin periferiya kontekstində onun mənası fərqlidir: burada söhbət şəxsi etirafdan deyil, tarixi-struktural mövqenin analitik dürüstlüklə etirafından gedir.

Əlbəttə, epistemoloji tövsiyələrin yanında metodoloji tövsiyələr də vermək olar. Çünki oxucularımız bəlkə də bunu gözləyir. Amma əgər metodoloji təklif versək, o təklifin bizim epistemoloji arqumentimizlə tutarlı olması lazımdır. Yəni biz deyirik ki, problem strukturaldır, onu sadəcə texniki vasitələrlə həll etməyə çalışmaq özümüzü inkar etmək olardı. Buna görə metodoloji tövsiyələrimiz "bu texnikanı tətbiq et, problem həllini tapar" formasında deyil, "bu yanaşmalar problemi görünür edir, onunla daha şüurlu işləməyə imkan verir" formasında olmalıdır. Birincisi, etnoqrafik və uzunmüddətli sahə işinin prioritetləşdirilməsidir. Anket və qısamüddətli müsahibə Azərbaycan sahə şəraitinin müdafiə reflekslərini aşmağa vaxt tapmır. Uzunmüddətli sahə işi tədqiqatçının icmada "kənar adam" statusundan çıxmasına (tam çıxmasa da, qismən çıxmasına) şərait yaradır. Bu Qərb metodoloji ədəbiyyatında yeni deyil, lakin periferiya kontekstində onun əhəmiyyəti fərqli bir arqumentlə əsaslandırılır: burada söhbət daha zəngin data toplamaqdan deyil, metodun işlədiyi sosial mühitlə uyğunlaşmaqdan gedir.

İkincisi, "uğursuzluq məlumatının" sistematik qeyd edilməsidir. "No response"ların və təhrif edilmiş cavabların özü məlumat kimi sənədləşdirilməli, metodoloji əlavə kimi deyil, tədqiqatın analitik hissəsi kimi təqdim edilməlidir.

## Nəticə

Bu məqalə sosioloji metodun universal olduğu iddiasını periferiya sahə şəraitindən yenidən oxumaq cəhdidir. Əsas arqument belədir: Azərbaycan sahə tədqiqatında qarşılaşılan problemlər olan respondentin iştirakdan imtinası, cavabların sistematik təhrifi, müəyyən qrupların struktural görünməzliyi, maliyyə çatışmazlığının epistemik nəticələri sadə texniki çatışmazlıqlar deyil, sosioloji metodun gizli problemlərini üzə çıxaran simptomlar kimi oxunmalıdır. Metod neytral bir alət deyil; o, müəyyən bir sosial-tarixi mühitdə formalaşmış, o mühitin normallarını "universal" kimi kodlaşdırmış bir konstruksiyadır.

Bu arqumentin daha geniş bir nəticəsi var. Əgər periferiya sahə şəraiti metodun gizli problemlərini sınayan bir laboratoriya rolunu oynayırsa, onda periferik tədqiqatçının mövqeyi epistemoloji cəhətdən marginal deyil, potensial olaraq yüksəkdir. O, metodun işləmədiyi yeri içəridən görür, bu isə metodun özü haqqında mərkəzdən görünməyən bir şeyi bilmək deməkdir. Tədqiqatçı sahə şəraitinin "problemlərini" gizlətmək əvəzinə onları metodoloji şəffaflıqla sənədləşdirir, öz tarixi-struktural mövqeyini isə tədqiqatın epistemoloji bir hissəsi kimi etiraf edir.

Nəhayət, bu məqalə postsovet dövrünün Cənubi Qafqazını, xüsusilə Azərbaycanı mövcud epistemoloji debata daxil etmək cəhdidir. "Qlobal Cənub" tənqidi, dekolonial epistemologiya, "Cənub nəzəriyyəsi" bu coğrafiyanı hələ görməmişdir. Lakin postsovet yarı-periferiyasının epistemoloji vəziyyəti nə Latın Amerikasının, nə Afrikanın, nə də Cənubi Asiyanın vəziyyətiylə eynidir; sovet bilik rejiminin izlərini daşıyan, eyni zamanda Qərb metodunu iqtibas etməyə çalışan bu kontekst özünəməxsus bir haldır və bu xüsusiyyəti onu mövcud debata yeni bir perspektiv kimi daxil etmək üçün əsas verir. Yazımın nəticələri və analitik iddiaları məhdud və lokaldır; lakin metodun universal olduğu fərziyyəsini diqqətdən kənarda qalmış bir periferiyadan belə ciddi şəkildə sorğulamaq qlobal epistemoloji müzakirəyə az da olsa töhfə verə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Abartal, K. The roles of epistemology and decoloniality in addressing power dynamics in university education. Power and Education, 2024, 16(2). https://doi.org/10.1080/14767724.2024.2335661*

2. *Alatas, S. F. Alternative Discourses in Asian Social Science: Responses to Eurocentrism. NY: Sage, 2006. 228 p.*

3. *Bourdieu, P. Language and Symbolic Power. Cambridge: Harvard University Press, 1991. 302 p.*

4. *Bueno, A., Teixeira, M., & Strecker, D. (Eds.). De-Centering Global Sociology: The Peripheral Turn in Social Theory and Research. Routledge, 2022. 212 p.*

5. *Comaroff, J., & Comaroff, J. L. Theory from the South: Or, How Euro-America is Evolving Toward Africa. London: Routledge, 2012. 280 p.*

6. *Connell, R. Learning from Each Other: Sociology on a World Scale in Sujata Patel (ed.) The ISA Handbook of Diverse Sociological Traditions, pp. 52-65. London: Sage Publications, 2010.*

7. *Connell, R. Southern Theory: Social Science And The Global Dynamics Of Knowledge. NY: Polity, 2007. 272 p.*

8. *Harding, S. (Ed.). The feminist standpoint theory reader: Intellectual and political controversies. London: Routledge, 2004.*

9. *Leskinen, A. Methodological Issues in Studies of Cultural Legacies in Post-Socialist Russia's Civil Society. Nonprofit Policy Forum, 2015, 6(2), 145-165. https://doi.org/10.1515/npf-2014-0005*

10. *Neubert, D. Do Western Sociological Concepts Apply Globally? Towards a Global Sociology. Sociology, 2022, 56(5), 930-945.*

11. *Oyewumi, O. The invention of women: Making an African sense of western gender discourses. University of Minnesota Press, 1997.*

12. *Roulleau-Berger, L. The fabric of Post-Western sociology: ecologies of knowledge beyond the "East" and the "West". J Chin Sociol. 2021;8(1):10.*

13. *Santos, D. S. Epistemologies of the South: Justice against epistemicide. London: Routledge, 2014. 426 p.*

14. *Wallerstein, I. World-Systems Analysis: An Introduction. Durham: Duke University Press, 2004. 109 p.*

15. *Wiredu, K. Conceptual decolonization in African philosophy: Four essays. Hope Publications, 1995.*


## Эпистемология социологического метода: взгляд с периферии


**Джахандар Галиб Джабаров**

***Преподаватель кафедры «Общественные науки» БСУ, докторант Института Философии и Социологии НАНА***

***ORCID: https://orcid.org/0000-0002-0075-2398***

***E-mail: c.cabarov@bsu-uni.edu.az***


## РЕЗЮМЕ


В статье критически рассматривается тезис об универсальной применимости социологиче-

ского метода с позиций постсоветской полупериферии, с особым акцентом на азербайджанском контексте. Цель исследования состоит в том, чтобы переосмыслить структурные проблемы, возникающие в ходе полевых исследований в Азербайджане, не как технические недостатки, а как проявление скрытых эпистемологических допущений самого метода. Опираясь на теорию мир-системы Валлерстайна, статья использует понятие «периферия» как эпистемическую позицию, а «теорию Юга» Коннел, «эпистемологическую слепоту» Сантоса и «символическое насилие» Бурдьё, в качестве теоретических точек отсчёта. Показывается, что в периферийной академии методологическая компетентность измеряется степенью приближения к западным стандартам, тогда как вопрос о соответствии метода местным условиям не ставится вовсе. В статье отдельно анализируются деформации в поведении респондентов, обусловленные постсоветской исторической памятью, в частности, ассоциацией «задающего вопросы» с фигурой советского государственного агента, а также структурные препятствия для полевой работы, создаваемые культурой махалли, и роль мещанства как мировоззрения, обесценивающего участие в исследованиях. В заключение выдвигаются два предложения: систематическая документация полевых «неудач» в качестве аналитических данных и эксплицитное признание исследователем собственной историко-структурной позиции как части методологической прозрачности. Постсоветский Южный Кавказ по-прежнему остаётся невидимым в актуальных глобальных эпистемологических дискуссиях; настоящая статья представляет собой попытку частично восполнить этот пробел.

**Ключевые слова:** *эпистемология социологического метода, периферийная академия, постсоветское полевое исследование, символическое насилие, эпистемическая позиция.*

## Epistemology of Sociological Method: A View from the Periphery

**Jahandar Galib Jabarov**
*Lecturer, Department of Social Sciences,*
*Baku Slavic University*
*Doctoral Researcher, Institute of*
*Philosophy and Sociology, Azerbaijan National*
*Academy of Sciences*
*ORCID: https://orcid.org/0000-0002-0075-2398*
*E-mail: c.cabarov@bsu-uni.edu.az*

**SUMMARY**

This article critically examines the claim of universal applicability of sociological method from the standpoint of the post-Soviet semi-periphery, with particular focus on the Azerbaijani context. The aim is to reframe the structural problems encountered in Azerbaijani field research, not as technical shortcomings, but as revealing the hidden epistemological assumptions of the method itself. Drawing on Wallerstein's world-systems theory, the article employs the concept of "periphery" as an epistemic position, and uses Connell's "Southern theory", Santos's "epistemology of blindness", and Bourdieu's "symbolic violence" as theoretical reference points. It is argued that in peripheral academia, methodological competence is measured by proximity to Western standards, while the question of whether the method is appropriate to local conditions is never even posed. The article separately analyzes the deformations produced in respondent behavior by post-Soviet historical memory, particularly the association of "the questioning figure" with Soviet-era state apparatus, as well as the structural obstacles to field research created by mahalla culture, and the role of philistinism as a worldview that renders research participation meaningless. The article concludes with two proposals: systematic documentation of field "failures" as analytic data, and the researcher's explicit acknowledgment of their own historical-structural position as part of methodological transparency. The post-Soviet South Caucasus remains invisible in current global epistemological debates; this article is an attempt to partially fill that gap.

**Keywords:** *epistemology of sociological method, peripheral academia, post-Soviet field research, symbolic violence, epistemic positionality.*

*Rəyçi: Sosiologiya elmləri doktoru, dosent Səadət Məmmədova*
*Məqalə redaksiyaya daxil olub: 16.01.2026*
*Çapa qəbul olunub: 21.02.2026*

*The date of the admission of the article to the editorial office: 16.01.2026*
*Accepted for publication: 21.02.2026*